Türküstan

20 – 26 sentyabr 2022–ci il



# Sarı qapılar



## İlham Əziz

**(Hekayə)**

**O, dünyada yox imiş.**
**Gördüyüm kəs yuxuymuş...**
*(Əli Kərim)*

***Bazarın giriş qapısında qara kostyumlu, ağ köynəkli nazik bığlı – bizimkilərə oxşayan bir kişi durmuşdu. Yaxınlaşıb azərbaycanlıları soruşdum, Şəki ləhcəsində laqeyd-laqeyd dedi:***

***– Gir içəri, hardan dolma iyi gəlsə, bil ki, ordadılar.***

***Bizimkiləri tapmaq çətin olmadı. Dostumu soruşdum, yarı təəccüblü, yarı qorxulu baxışlarla ünvanı göstərdilər. Ünvanı alıb Çıqanska üz tutdum. Yolda hiss etdim ki, gəldiyim yolları geri qayıdıram. Mən ora Piterdən uçmuşdum. Günün günorta çağı yer dəyişmişdi, göy dəyişməmiş, saat dəyişməmişdi. Piterdən uçduğum saatda Ufaya düşmüşdüm. Bu iki saatlıq qurşaq fərqi Ufada qaldığım günləri daim müşayiət etdi.***

Çatan kimi ilk diqqətimi çəkən girəcəyim həyətin qapısı oldu – bu qapıdan başqa bütün qapılar sarı idi. Sonralar bildim ki, bu qara qapı arxasında baş verənlərə görə bütün sarılardan fərqlidir. Bu qara qapı kəndin rəngli qapılarının ürəyinə xal kimi düşmüşdü.

Qara qapıdan içəri keçdim. Ətrafa göz gəzdirdim, heç kim yox idi. Birdən qəhəldə donuzların vurnuxduğunu hiss etdim. Diqqətlə baxanda donuzların arasında uşaq kimi iməkləyən bir adam görüb duruxdum. Demə, axşam qumarda üzüyünü udub donuzlara atıblarmış. Qumar oynayanda həmişə üzüyünü qoyurmuş. Üzük hərlənib-fırlanıb yenə özünə qayıdır, rəqiblərini əsəbiləşdirirmiş. Axırda kimsə üzüyü udan kimi donuzlara atıb ki, axmaq heyvanlar yesin, hamının canı bu sarı ilandan qurtarsın. Amma olmadı, səhəri gün üzük yenə qumar masasındaydı.

Məni Elşən qarşıladı; xoşbeşdən sonra harasa getdi. Mən də divanda oturub dincimi alırdım ki, üz-üzə yemək yeyən iki nəfərin söhbətinə qulaq şahidi oldum. Şirin-şirin zarafatlaşırdılar. Yaşlısı soruşdu:

– Rəhim, Bakının adını hardan götürüblər?

Cavan oğlan elə bil, illərlə bu sualı gözləyib. Köynəyinin qoluyla burnunu silə-silə əminliklə cavab verdi:

– Əhməd Bakıxanovun adından!

Elə bunlara matdım-matdım baxırdım ki, içəri qıvrımsaç, iri cüssəli, əsəbi bir adam girdi. Narahat oldum. Çünki bura azərbaycanlıların “obşaq” evi idi. Elşən əvvəlcədən azdan-çoxdan danışmışdı. Hərəkətlərimə fikir verməli idim. Özümü bir az da yığışdırdım. Adam stulu çevirib üzü mənə oturdu. Bir az məni nəzərdən keçirdi. Dedim, yəqin nəsə səhv eləmişəm, səhv yerdə oturmuşam. Gözləri gözlərimdə cəld əlini yandakı masaya atıb tabağı götürdü. Dəmir tabağı dəf kimi döyə-döyə başladı, nə başladı:

“Qara tellər, Qara tellər...”

Aşpaz imiş.

Dedim, başlandı...

Bu an Elşən içəri girib iti məsciddən qovan kimi üçünü də qovdu. Axşama hazırlıq başladı, stollar düzüldü, həyətdə donuzun bağrına xəncər saplandı, manqala od salındı, hərə bir işin qulpundan yapışdı. Bir azdan bu həyətin, bu evin, bu düzənin yiyəsi gəldi, yanında da idmançı uşaqlarg Oturdular, dedilər, güldülər, birdən üz-gözləri tutuldu, qaraldılar, qara buluda döndülər, çeçenlərdən danışdılar, oğrulardan danışdılar, doğrulardan danışdılar. Yeməklər düzüldü, hamı süfrə ətrafına cəm oldu. Elə yeməyə başlayacaqdılar ki, bu evin, bu düzənin yiyəsi Əli dilləndi:

– Ay uşaqlar, Məmmədbağır hardadır? Neyləyir?

Qəhəldə üzük axtaran dilləndi:

– Bu gün bazardaydı. Deyirlər, çox içir, “bomj” olub.

***Əli tutuldu, əlin süfrədən çəkdi, papiros yandırdı. Ortalığa tüstü sakitliyi çökdü, hamı gözünü Əliyə dikdi:***

***– Gedin, tapın, gətirin!***

***Söz qəfil güllə kimi açıldı, hədəfə dəydi, üç adam birdən durdu, maşına minib getdilər, bir saat çəkməmiş qayıtdılar. Yanlarında bazarın qapısında gördüyüm qara kostyumlu, ağ köynəkli, nazik bığlı adamg Amma kostyumu, köynəyi əzilmiş, üz-gözü şişmiş, tüklüg Elə bil, bayaq gördüyüm adam deyil. İçəri girər-girməz tanıdım. Əli məzəmmətlə salam verdi Məmmədbağıra:***

***– Məmmədbağır, bu nə gün-güzərandı?***

***– Gün həmən gündü, güzəran yoxdu!***

***Əli gözünün ucuyla masanın aşağılarında yer göstərdi, Məmmədbağırı ora oturtdular, yemək verdilər, araq vermədilər. Məmmədbağır qurdalandı, qurdalandı, yemək boğazından keçmədi, zəhərə döndü.***

***Məmmədbağır AZİ-ni qurtarandan sonra təyinatla Ufaya işləməyə gəlib. Çox keçməyib, tatar qızına aşiq olub, ailə qurub. Bir qızı da var. Həyatdı da, alınmayıb, boşanıblar. Amma vətəndə də bir uzunsaçlının əllərin qoynunda qoyub, yuxuların ərşə çəkib. O yuxular Məmmədbağırın yaxasını buraxmayıb, izləyib, gün verib, işıq verməyib. Bütün qohum-qardaşı üz döndərib ondan, sonda ən ağır cəzaya məhkum ediblər: unudublar Məmmədbağırı! O gün, bu gün qurşanıb içkiyə. İndi burda ona araq süzülməyəndə, bu süfrədə də unudulanda əli əsmirdi, üzü əsirdi. Sanasan, üzünə meh əsir – ölüm mehi! O gündən Məmmədbağır bizimlə bir yerdə – bu evdə, bu qan çanağında yaşadı.***

Məmmədbağır bu evdə bircə yır-yığışa baxan orta yaşlı Mariyadan başqa heç kimlə dil tapa bilmirdi. Altdan-altdan Mariyanı süzməyi vardı, gəl-görəsən. Mariya da nə Mariya? Ağappaq maya. Fikri-zikri qalırdı Mariyada, uşaqlar da bir-birinə him edib, məzələnir, yeri gəldi gəlmədi zarafatlaşır, kişinin canını boğazına yığırdılar. Məmmədbağırsa imkan tapan kimi gülürdü.

Əli günün birində, əhvalının yaxşı vaxtında hamını yığıb, Məmmədbağırla Mariyanı evləndirmək istədiyini söylədi. Güldülər, amma tez də razılaşdılar. Əmr böyük yerdən idi. Mariya da razılaşdı. Toyun vaxtını, vədəsini danışdıq. Hərə bir şey söz verdi. Əli Mariyaya pul-para verib göndərdi ki, ev-eşiyini sahmana salsın. Necə olmasa, adımızdı, gəlingətirdiyə gedəcəyik, ev abırlı olsun.

Toy günü yetişdi, maşınlar bəzəndi, şəhərdən gətirdiyimiz çalğıçıları da götürüb gəlingətirdiyə getdik. Mariyanın qapısında da bizim adətimizlə çal-çağır, oynamaqg Kənd-kəsək tamaşaya durmuşdu, qoşulub bizlə oynayanlar da oldu. Rafo da gündə qumarda uduzub əldən-ələ keçən üzüyünü barmağından çıxarıb Məmmədbağırın barmağına saldı. Gəlin maşınını siqnallaya-siqnallaya qapıya gəldik, çaldıq-oynadıq, yedik-içdik, axşam da bəylə gəlini yola saldıq evlərinə.

İki gün keçmədi Mariya ağlaya-ağlaya gəldi ki, Məmmədbağır yoxdu. Sən demə, toyun səhəri cibinə qoyduğumuz şabaşları da götürüb aradan çıxıb. Əli uşaqları göndərdi ki, tapıb gətirsinlər. Köhnə uşaqlardan biri dedi, içəndə aeroporto gedir, oralarda sülənir. Soruşanda da deyir, bura Şəkiyə ən yaxın yerdig

Məmmədbağırı tapıb gətirdilər. Əli cin atına mindi, nə mindi! Söyüb-sulayandan sonra dedi, çəkin bunu çarmıxa! Uşaqlar bu sözə bənd imiş. Məmmədbağırı həyətdəki rus hamamının qabağında həzrəti İsa kimi mismarladılar taxtaya, amma şalvarından pencəyindəng

Əli hamıya tapşırdı, vedrələrə pomidor yığıb Məmmədbağıra atsınlar. Uşaqlar həyasız-həyasız, irişə-irişə pomidor yığıb gətirdilər. Başladılar var güclərilə Məmmədbağıra pomidor atmağa. O da dayanmadan söyür, gah gülür, gah da tüpürürdü. Mən də bir iki pomidor alıb Məmmədbağıra tolazlamaq istəyirdim ki, göz-gözə gəldik. Birdən susdu, söymədi. Hardansa kilsə zəngi gəldi, qadın xoru başladıg Hamının əli-qolu sustaldı, gülüşlər kəsildi, pomidorlar əlimdə günahlarım oldu, od tutdu hər yerimi qarsıdı, buz üstündə yanan ocağa döndüm.

Birdən hamı dağıldı, yoxa çıxdı. Məmmədbağırın paltarına vurulmuş mismarları çıxara-çıxara üzürxahlıq etmək, hamının əvəzinə yalvarıb-yaxarmaq istədim, amma edə bilmədim. Ağzımda dilim şişmişdi! Üzündə xəzrinin əldən saldığı dəniz yorğunluğu görünür, sinəsi canı boğaza yığılmış Xəzər kimi qabarıb-çəkilirdi...

O gündən Məmmədbağır bizimlə qaldı, heç yerə getmədi, içkini atdı, dumanlandı, dumana düşdü. Zaman da, məkan da Məmmədbağırın əleyhinə işləyirdi, elə bil, Allah da qəsdinə durmuşdu.

Arada Məmmədbağırdan tay-tuşlarını, iş yoldaşlarını soruşurdum. Heç kimlə “salam-sağ ol”u qalmamışdı. Təklənmişdi Məmmədbağır, tək qalmışdı. Dünyanın ən qərib adamıydı, elə kövrəlirdi, sanardın bir sözdən çilik-çilik olacaq, səpiləcək aləmi-zərrə...

Günlər keçir, bu səsli-küylü evdə bir Məmmədbağır səssiz gülür, səssiz yaşayırdı. Onun bu evdə varlığı-yoxluğu bilinmirdi, xəyali adama çevrilmişdi, hərənin bu evdə öz Məmmədbağırı vardı. Birinin yazığı gəlirdi, birinin zəhləsi gedirdi.

***Günlər keçdikcə bu evin içində də unudulurdu Məmmədbağır. Amma bir gün qara-qışın qar vaxtı, şəhərdə sınıq-salxaq ‘Niva’mla dolaşdığım vaxt, elə bil, nəsə məni kəndə, Çıqanska çəkdi. Şəhər anbaan mənasızlaşdı, hara getmək istədimsə, həvəsdən düşdüm. Bir də ayıldım ki, kəndə çatıram, evə çatıram.***

***Bu qayıdışın sirrini indi də anlamıram. İçəri girəndə hamı stol başında, yemək süfrəsində məni gözləyirdi. Çörək gözləyirdilər, çörək almışdım. Çörəyi alan kimi, süfrəyə yemək qoyuldu, hamı yeməyə daraşdı. Hamı burdaydı, bircə Məmmədbağır gözümə dəymədi. İndi anlamışdım ki, niyə evə tələsmişəm, niyə bu gen dünya başıma dar gəlib. Məni o çağırırmış...***

Məmmədbağırı soruşdum. Öldü dedilər. Evin içi Sibirdən soyuq oldu. Bunlar niyə rahatdılar, axı ölən var. Başqa vaxt zarafat sayardım, amma indi inandım, inandım ki, ölüb Məmmədbağır. Ölməsəydi, mən bu hallara düşməzdim, məni evə çəkən sirr ölüm sirriydi...

İçəri otağa keçdim, Məmmədbağır həmişəki yerində – kresloda oturub. Gözləri qapalı, bağayarpağına oxşayan əlləri üzündəg Məmədbağırın daş kitabələrə bənzər alnı – o alın ki orda Məmmədbağırın yox, ora baxanın öz taleyi apaydın yazılmışdı – çuxura düşmüş, dibi görünməyən gözləri – o gözlər ki, onlara dikiləndə itib batırdın, özünü unudurdun, orda əriyib yox olurdun – adamı vahiməyə salırdı. Üzündə daim təbəssüm gəzdirən bu adamın bir gün hönkürüb ağlayacağına əmin idim.

***Ağlamadı Məmmədbağır! Üzündən asdığı təbəssümlə köçdü bu dünyadan. Qaytarıb bu dünyadakı yerinə qoya bilmədi üzündən asdığı təbəssüm pərdəsini. Bir də gözümə sarı ilan kimi soxulan sarı üzükg Ölməmişdən üzüyü çıxarıb masanın üstünə qoyub. Bu sarı üzüyü çıxarmaqla Məmmədbağır öz-özünə qüsl vermişdi, paklanmışdı.***

***Köməkləşib morqa apardıq Məmmədbağırı. Təhvil-təslimdən sonra, bizi içəri dəvət etdilər. Sorğu-sual başladı. Ölənin ad-familiyasını soruşdular. Kimdən soruşduq, kimə zəng vurduq, Məmmədbağırın adını bilən olmadı.***